KREDO
№ 43-44 (1221-1222) 19 iyul 2024-cü il

**AXMA GÖZ YAŞLARIM, AXMA ÜZÜMƏ**

Axma göz yaşlarım, axma üzümə,
Kədəri-qüssəni tökmə üstümə,
Səhərin mehi tək dolub gözümə,
Qaraltma dünyamı, yıxma dünyamı.

Axan göz yaşlarım axdıqca-axar,
Bir gün o gözlərdə sevinc yer tapar,
Fərəhdən nur saçar, qığılcım səpər,
Əlvida, göz yaşım, əlvida deyərl

Göz qəlbin aynası, vücudun özü,
Göz qəlbdən su içər, parlayar düzü,
İstərəm sevincdən ağlasın gözlər,
Kədər, göz yaşları görməsin üzlər!

**DÖNƏ BİLƏYDİM**

O keçən günlərə dönə biləydim,
Atalı-analı uşaq olaydım...,
Möhkəm yapışaydım hər ikisindən,
Həsrətin, hicranın sonun qoyaydım!

Varmısan-yoxmusan, heç bilinməyir,
Ürəyim dərd çəkir, ruhum dinməyir,
Vüsalın şirindir, hicranın acı,
Hicrana — inan ki, ürək dözməyir!

Gül tək ləçək-ləçək səpələnəydim,
Əbədi həsrətə vida deyərdim,
Bir ata, bir ana sevgisi ilə..,
Yenidən dünyaya işıq saçaydım.

**SƏMƏD VURĞUN**

***Görkəmli Xalq şairimiz***
***Səməd Vurğuna həsr edirəm***

Bir uca zirvədir, bir uca dağdır,
Könüllər fəth edən böyük dahidir,
Yazıb - yaratdığı bir xəzinədir,
Vurğunu olmuşam, Səməd Vurğunun.

Özü də, sözü də, şanı da gözəl,
Yazdığı hər şerin misrası gözəl
Yaşadır qəlbində səni sevənlər,
Vurğunu olmuşam, Səməd Vurğunun.

Keçib o çağlardan çox qərinələr,
Şairi yaşadar, şair sevənlər,
Hər eldə, obada nəğməsi gəzir,
Vurğunu olduğum, Səməd Vurğunun.

**AZƏRBAYCAN,**
**AZƏRBAYCAN!**

Həzin-həzin nəğmə deyək,
Biz səninlə fəxr eyləyək,
Bu torpağı biz qoruyaq,
Azərbaycan, Azərbaycan!

Çox uludu sənin adın,
Ulduzların yaxın-yaxın,
Bu ölkəyə çoxdur axın,
Azərbaycan, Azərbaycan!

Qüdrətlidir sənin adın,
Səfalıdır hər oylağın,
İgidlərin sənin üçün verdi canın,
Azərbaycan, Azərbaycan!

Sən bu yolda dönməz oldun,
Zəfər çaldın, qalib oldun,
Zirvələrdə dalğalanan bayrağına,
Millətinə sahib oldun,
Azərbaycan, Azərbaycan!

**Almaz Kamal**